# DÖVLƏT PROQRAMLARI, LAYİHƏLƏR VƏ STRATEGİYALARIN MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ METODOLOGİYASI

**Kənan Aslanlı**

**Bakı, 01/08/2018**

## Monitorinq və qiymətləndirmə nədir?

- ***Monitorinq*** layihənin, proqramın, strategiyanın həyata keçirilməsinin və onun planlaşdırılmış ilkin nəticələrinə nail olunmasının izlənilməsi prosesidir.

- ***Qiymətləndirmə*** isə proqramın nəzərdə tutulan son nəticələrə və təsirlərə nail ola biləcəyini görmək üçün sistematik aparılan tədqiqatdır.

**Monitorinq və qiymətləndirmə prosesinin məqsədləri və indikatorları**

SMART meyar:

- ***Spesifik (Specific)***
- ***Ölçüləbilən (Measurable)***
- ***Əlçatan (Attainable)***
- ***Realist (Realistic)***
- ***Zamana bağlı (Time-bound)***

# Məntiqi çərçivə (“LogFrame”) yanaşması



# “LogFrame” formatı

| Vertikal Məntiq | Horizontal Məntiq | | | |
|---|---|---|---|---|
| | Mətn formasında xülasə | Obyektiv təsdiqlənən indikatorlar | Təsdiqləmə vasitələri (mənbələr) | Fərziyyələr/ Risklər |
| | Məqsəd | | | |
| | Nəticə | | | |
| | Buraxılış | | | |
| | | | | |
| | Fəaliyyətlər | Resurslar (inputs) | | |

# İndikatorların dizaynı

- *Başlıq: göstəricinin xülasəsini əhatə edən qısa bir başlıq.*
- *Tərif: hər kəsin hər bir göstəricini eyni şəkildə şərh edə bilməsi üçün aydın və konkret tərif/definisiya.*
- *Mənbə: göstəricinin dəyərini əldə etmək üçün istifadə edilən vasitədir və bu məlumatın toplanmasından cavabdeh şəxs.*
- *Məlumat toplama tezliyi: göstəricinin dəyərinin hesablanması üçün məlumatların toplanması tezliyi (rüblük, yarım illik və ya illik aralıqlar).*
- *Numerator: ümumi nisbətdə/kəsirdə xəttin yuxarı hissəsində olan dəyişən.*
- *Denominator: ümumi nisbətdə/kəsirdə sətirin altındakı dəyişən.*
- *Hesablama üsulu: göstərici dəyərinin hesablanması üçün metod.*

# İndikatorların təsnifatı

- ***Resurs indikatorları*** (*input indicators*) - nəticəyə nail olmaq və intitusional mühit formalaşdırmaq üçün tələb olunan maliyyə, insan və material resursları ilə təminatı və onlardan istifadəni ölçmək üçün istifadə olunur;
- ***Proses indikatorları*** (*process indicators*) - nəticələrə çatmaq üçün atılan praktik addımlar, planlaşdırma prosesi, qərarların icra və iştirakçılıq mexanizmləri, inzibati sistemlər və prosedurların effektivliyinin ölçülməsinə imkan verir;
- ***Nəticə indikatorları*** (*output indicators*) - idarəetmə resurslarının və prosesinin vizual olaraq görünən nəticələrini (məsələn, vətəndaşların ehtiyaclarını ödəyən müxtəlif dövlət xidmətləri) ölçmək üçün istifadə olunur;
- ***Qavrayış indikatorları*** (*perception indicators*) - vətəndaşların müxtəlif məsələlər (əsas dövlət xidmətlərinin vətəndaşa çatdırılması, iqtisadi rifah, idarəetmənin hesabatlılığı, dövlət məmurunun davranışları və s.) barədə fikirlərini və məsələlərin necə qavranılmasını ölçməyə imkan verir;
- ***Uzunmüddətli nəticə və təsir indikatorları*** (*outcome and impact indicators*) - uzunmüddətli inkişaf məqsədlərinə çatılmasını və idarəetmənin uzunmüddətli nəticələri sayəsində vətəndaşların yüksək məmnunluğunu və əldə etdiyi yeni iqtisadi faydaları qiymətləndirir.

**Monitorinq və qiymətləndirmə üçün məlumatların toplanması**

1. Layihə sənədləri (məsələn, TİƏ, ekoloji hesabatlar və s.)
2. Layihələri icra edən qurumlara informasiya sorğuları
3. İnternet resursları, KİV və başqa mənbələr
4. Qanunvericilik, proqram, sərəncam və qərarlar
5. Ekspert intervyuları və fokus qruplar
6. Statistik məlumatların müqayisəsi
7. Anket-sorğular və şəxsi müşahidələr

# Dövlət proqramlarının monitorinq və qiymətləndirmə planı

| Gözlənilən nəticələr | İndikatorlar | Dövrülük | Mənbə | Başlanğıc dövrdəki dəyər | Mərhələlər | | | Hədəf dəyər | Öhdəlik/ Məsul olan |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | İl 1 | İl 2 | ... | | |
| Təsir | | | | | | | | | |
| Nəticə | | | | | | | | | |
| Buraxılış (output) | | | | | | | | | |
| 1.......... | | | | | | | | | |
| 2.......... | | | | | | | | | |
| 3.......... | | | | | | | | | |

# Təsirlərin qiymətləndirilməsi



## Strateji yol xəritələri (06.12.2016)

1. Azərbaycan Respublikası ***milli iqtisadiyyat perspektivi*** üzrə Strateji Yol Xəritəsi

2. ***Neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına*** dair Strateji Yol Xəritəsi

3. ***Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına*** dair Strateji Yol Xəritəsi

4. ***Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına*** dair Strateji Yol Xəritəsi

5. ***Ağır sənaye və maşınqayırmanın inkişafına dair*** Strateji Yol Xəritəsi

6. ***İxtisaslaşmış turizm sənayesinin inkişafına*** dair Strateji Yol Xəritəsi

## Strateji yol xəritələri (06.12.2016)

7. ***Logistika və ticarətin inkişafına*** dair Strateji Yol Xəritəsi

8. ***Uyğun qiymətə mənzil təminatının*** inkişafına dair Strateji Yol Xəritəsi

9. ***Peşə təhsili və təliminin inkişafına*** dair Strateji Yol Xəritəsi

10. ***Maliyyə xidmətlərinin inkişafına*** dair Strateji Yol Xəritəsi

11. ***Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına*** dair Strateji Yol Xəritəsi

12. ***Kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına*** dair Strateji Yol Xəritəsi

http://iqtisadiislahat.org/documents/strateji_yol_xeritesi-11

# Strateji Yol Xəritəsinin hədəf indikatorları, strateji məqsədləri (hədəfləri) və uzunmüddətli təsirləri

| HƏDƏF İNDİKATORLARI | STRATEJİ MƏQSƏDLƏR |
|---|---|
| **Qeyri-neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyaların qeyri-neft ÜDM-dəki payının hazırkı 2,6 faizlik göstəricidən 2025-ci ilə qədər 4 faizə çatdırılması.** | Strateji hədəf 1. Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi |
| **Qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından 2025-ci ildə ən azı 450 ABŞ dollarına qaldırılması.** | Strateji hədəf 2. Özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi |
| **Ticari mal və xidmətlər sektorunda, məsələn istehsal və ya turizm sektorlarında 2025-ci ilə qədər 150 min əlavə iş yerinin yaradılması.** | Strateji hədəf 3. İnsan kapitalının inkişaf etdirilməsi |
| **Dövlət büdcəsinin ARDNF-in transfertlərindən asılılığının azaldılması.** | Strateji hədəf 4. Əlverişli biznes mühitinin inkişaf etdirilməsi |

**Təsir: «Strateji Yol Xəritəsi 2025-ci ilə qədər ÜDM-də 3%-dən çox orta illik real artım və əlavə olaraq da 450 mindən çox yeni iş yerinin yaradılmasını nəzərdə tutur».**

# Strateji Yol Xəritəsinin monitorinq və qiymətləndirməsi ilə bağlı qeydlər (1)

- Mövcud «M&E» sistemi Strateji Yol Xəritəsinin tədbirlər planında nəzərdə tutulan fəaliyyətlərin qurumlar üçün iş yükünü nəzərə almalıdır.
- Bütün fəaliyyətlərin qurumlardan tələb etdiyi zaman və resurs eyni olmaya bilər. Bəzi fəaliyyətlərin icra əmsalı digərlərindən "*differensiallaşmış*" əsaslarla daha fərqli sistemlə tətbiq edilə bilər.
- Bu metodologiyaya əsasən "*əsas icraçı qurumların performansı qiymətləndirilərkən məsul olduqları tədbirlərin ümumi tədbirlərdəki xüsusi çəkisi nəzərə alınmır*".
- Buna görə də, performans sıralamasında ən az sayda illik tədbir öhdəliyi olan (*cəmi 1*) qurumlar lider ola bilər (*məsələn, Maliyyə Sabitliyi Şurası*).
- Hansı ki, yuxarıda da qeyd edilən "differensiallaşmış" əmsallar tətbiq edilsə ***qurumların öhdəliklərinin sayı*** da bir dəyişən kimi nəzərə alına bilər.

## Strateji Yol Xəritəsinin monitorinq və qiymətləndirməsi ilə bağlı qeydlər (2)

- Qurumların "*tədbirin icrasına başlamaq*" deyərkən nəyi nəzərdə tutduğu da çox önəmlidir. Bəzən hansısa hədəf və ya tədbir istiqamətində bir işçi qrupu toplantısı "*tədbirin icrasına başlamaq*" kimi nəzərə alına bilər.

- Fəaliyyətlərin ***«SMART» nəticə indikatorları olarsa və bəziləri çox ümumi ifadə olunmazsa*** (məsələn, "*1.3.5. - Adekvat iqtisadi gözləntilərin formalaşması və idarə edilməsi*" və ya "*4.1.1. - Azad rəqabət mühitinin inkişaf etdirilməsi*") monitorinq və qiymətləndirmə fəaliyyəti daha rahat reallaşdırıla bilər.

# Strateji Yol Xəritəsinin monitorinq və qiymətləndirməsi ilə bağlı qeydlər (3)

- İcrasına başlanılan tədbirlər əsasında əsas icraçı olan mərkəzi icra hakimiyyəti qurumlarının məsul olduqları tədbirlərin icra səviyyəsi qiymətləndirilərkən ***məlumatların hansı metodlarla və hansı mənbələrdən toplanması*** hesabatlarda öz əksini tapmalıdır.

- Mahiyyət üzrə tədbirlərin adekvat qiymətlənməsi yalnız icraçı təşkilatların məlumatları əsasında deyil, benefisiar və maraq tərəflərindən alınan məlumatlar əsasında aparıla bilər (“*steykholder yanaşma*”).

- Tədbirlərin icra müddətinə uyğunluqla və relevantlıqla yanaşı, onların icrası zamanı resurslardan səmərəli istifadə, nəticəlilik və dayanıqlı təsir (“3 E” yanaşması) də nəzərə alına bilər.

## Strateji Yol Xəritəsinin monitorinq və qiymətləndirməsi ilə bağlı qeydlər (4)

- İllik hesabatlarda Strateji Yol Xəritəsinin icrasındakı problemlərin də əks olunması müsbət haldır (*məsələn, elektron ticarətin beynəlxalq normalara uyğun infrastrukturunun qurulması, rəqabət məcəlləsinin layihəsinin hazırlanması ilə bağlı kifayət qədər iş aparılmaması və s.*).

- Amma bu yarımillik və illik monitorinq və qiymətləndirmə hesabatlarında dövlət qurumlarının icrasına başlamadıqları və ya zamanında tam icra edə bilmədikləri fəaliyyətlər və bu ***aşağı performansın səbəbləri*** ilə bağlı daha ətraflı məlumatlar verilə bilər.

- *Strateji Yol Xəritələrindəki hədəf indikatorları, strateji məqsədlər, strateji hədəflər, prioritetlər arasında tam uyğunluq olmalıdır; hədəf indikatorlarının konkret illər üzrə dəyişimi göstərilməli və ölçüləbilən olmalıdır (məsələn, «urbanizasiya probleminin azalması» indikatoru).*

**Təşəkkür edirəm!**